# Milli folklorşünaslıqda mətn strukturunun funksional modelləşdirmə təcrübəsi

**Sərxan Xavəri**
*AMEA-nın Rəyasət Heyətinin elmi katibi,*
*filologiya üzrə fəlsəfə doktoru*
**E-mail:** sarxanxaveri@gmail.com

**Rəyçilər:** filol.ü.e.d.,akad. M.K. İmanov,
filol.ü.e.d., prof. F.X. Gözəlov

**Açar sözlər:** folklor, mətn, epos, etnoenergetika, funksional, struktur, xalq mədəniyyəti, ənənə, təcrübə, xalq biliyi

**Ключевые слова:** фольклор, текст, эпос, этноэнергетика, функциональная структура, народная культура, традиция, опыт

**Key words:** folklore, text, epos, ethnoenergetics, functional structure, folk culture, tradition, experience, folk knowledge

Müstəqillik mərhələsində Azərbaycan folklorşünaslığında müşahidə olunan mühüm tendensiyalardan biri də oğuzşünaslığın xüsusi bir araşdırma sahəsi kimi inkişafı oldu. Bu araşdırmalarda, əsasən, Oğuznamə mətnlərindən oğuzların tarixinin, mədəniyyətinin, qədim mifik və dini görüşlərinin rekonstruksiyası əsas tədqiqat istiqamətini təşkil etməyə başladı. Hətta bu istiqamət elə bir səviyyədə intişar tapdı ki, oğuzşünaslıq özündə tarix, mifologiya, folklor, etnoqrafiya kimi sahələri birləşdirən ayrıca bir elmi istiqamətə çevrildi.

Ötən əsrin 90-cı illərində müşahidə olunan bu yeni tendensiyalar hələ folklorşünaslığın sovet dövründə kəsb etdiyi elmi-nəzəri yanlışlıqlardan tamamilə azad olması, nəzəri-metodoloji baxış bucağının dəyişməsi ilə nəticələnən yeni mərhələnin yaranması demək deyildi. Belə ki, sovet dövründə müəyyən bir akademik normativə tabe olan folklorşünaslıq araşdırmaları bu mərhələdə bəzi tədqiqatçıların timsalında hətta antielmi səciyyə kəsb etməyə başladı. Elmi prinsipsizlik şəraitində sərbəstlik və azadlıq meyilləri o həddə çatdı ki, heç bir elmi əsası olmayan, hətta adi sağlam məntiqin belə qəbul edə bilməyəcəyi ideyalar rəsmi elmi tribunalardan səslənmək səlahiyyəti qazandı. Milli genezisi əşirət dövrünə aparıb çıxarmağa xidmət edən saxta etimologiyaların elmi dəbə çevrilməsi, bu günün ən modern siyasi reallıqlarına əsaslanan “dost-düşmən modelinin” folklor mətnlərinin təhlilində retrospektiv baxış kimi özünü göstərməsi, ümumən elmi üslubda populizmin, şüarçılığın analitikanı, elmi obyektivliyi üstələməsi və s. bu mərhələnin tez-tez rast gəlinən elmi reallıqları idi. Dədə Qorqudun, Qazan xanın, Koroğlunun, Qaçaq Nəbinin təqdimində onların mənsub olduqları mifoloji, kulturoloji və tarixi kontekstdən uzaqlaşdırılması, bu günün siyasi məntiqi ilə düşünən və mübarizə aparan qəhrəmanlara (“milli azadlıq hərəkatı liderlərinə!”) çevrilməsi kimi tendensiyalar da məhz bu mərhələdə güclənməyə başladı. Həm də çox təəssüf ki, belə bir yanaşma yalnız kütləvi səviyyəni deyil, bir çox hallarda professional tədqiqatçı səviyyəsini də təmsil etdi. Belə bir şəraitdə milli mədəniyyət tarixi ilə məşğul olan istənilən alimin dəyəri mədəniyyətin ümumtürk genezisini nə qədər qədimə aparması, tarixçinin dəyəri isə genezis konsepsiyasını nə dərəcədə türkləşdirə bilməsi ilə ölçüldüyü kimi, folklorşünasın da dəyəri milli folklor fonduna məxsus mətnləri nə dərəcədə ümummilli azadlıq ideyaları rakursundan izah edə bilməsi ilə ölçülməyə başladı.

Bütün sosial-mədəni proseslərdə olduğu kimi, humanitar elmi düşüncəmizin bu zaman

kəsimində baş verən hadisələr də sinergetikanın modelləşdirdiyi xaos nəzəriyyəsinin qanunauyğunluğuna tabedir. Belə ki, sinergetika bəyan edir ki, hər bir sabit sistemin inkişafında xaos bifurkativ proses olaraq növbəti yeni inkişaf mərhələsinə keçidin əsasını təşkil edir. Başqa sözlə ifadə etsək, proses öz inkişafının sabit mərhələsindən yeni keyfiyyətli mərhələsinə keçə bilmək üçün mütləq xaosdan keçməlidir. Azərbaycan folklorşünaslığında ötən əsrin 90-cı illərinin ortalarından sonra baş verən proseslər, yuxarıda qeyd etdiyimiz kimi, sosial proseslərdə sinergetik özünütəşkil mexanizminin doğruluğunu bir daha təsdiq etdi. Belə ki, folklorşünaslıq üzrə yeni kadrlar yetişdikcə artan emosiyaların istisində əriyib külə dönən ağıl, intellekt, elmi obyektivlik, soyuq məntiqi mühakimə yenidən öz hakimi-mütləq mövqeyinə qayıtmağa başladı. Bu, folklorşünaslıq elmində dünya folklorşünaslığının ən müasir nəzəri-metodoloji nailiyyətlərindən bəhrələnmədə, ümumən bu sahənin bir elm kimi yeni inkişaf istiqamətlərində özünü göstərdi.

Hazırda Azərbaycan folklorşünaslığında diqqəti cəlb edən ən mühüm tendensiyalardan biri son iyirmi ildə start götürmüş nəzəri-metodoloji axtarışların yeni keyfiyyət mərhələsinə qədəm qoymasıdır.

Digər bir mühüm istiqamət isə multidissiplinarlığın prioritet istiqamətə çevrilməsidir. Akad. İ. Həbibbəyli folklorun multidissiplinar araşdırılmasını xalq mədəniyyətinin öz daxili müəyyənlik keyfiyyəti ilə əlaqələndirərək zəruri bir istiqamət kimi dəyərləndirir: “Özündə xalqın tarixi təcrübəsini, mifik görüşlərini, dini inanclarını, estetik baxışlarını əks etdirən folklorun multidissiplinar tədqiqi xüsusilə zəruridir. Çünki xalqın bütöv mahiyyətinin hərtərəfli təcəssüm olunduğu folklor xəzinəsi multidissiplinar yanaşma olmadan, kompleks tədqiq oluna bilməz” [1, 3].

Hazırda Azərbaycan folklorşünaslığında yuxarıda qeyd etdiyimiz yeni nəzəri-metodoloji tendensiyaları yaradıcılığında geniş əks etdirən alimlərdən biri filologiya üzrə elmlər doktoru Seyfəddin Rzasoydur. O, dünya folklorşünaslığının metodoloji yanaşmaları kontekstində nəzəri araşdırmaları və orijinal konseptual baxışları ilə müasir folklorşünaslığımızı zənginləşdirməkdə, ona nəzəri yön verən alimlərdən biri statusuna yüksəlmişdir. Terminoloji baxımdan “funksional struktur” anlayışı milli folklorşünaslığımızda ilk dəfə olaraq məhz Seyfəddin Rzasoyun araşdırmalarında aprobasiya olunmuşdur. Belə ki, S. Rzasoy Azərbaycan folklorşünaslığında ilk dəfə olaraq miflərə donuq struktur kontekstində deyil, mifoloji düşüncənin funksional struktur mexanizmləri kimi yanaşmış və Oğuz mifinin rekonstruksiyasına dair apardığı çoxsaylı araşdırmalarda həmin mexanizmləri oğuz eposunun paradiqmatik və sintaqmatik səviyyələrində funksional struktur mexanizmləri olaraq aşkarlaya bilmişdir. Yəni müəllif göstərir ki, mif üçün xarakterik olan düşüncə mexanizmləri tarixi düşüncənin dastan kodu səviyyəsində də eyni funksiyanı yerinə yetirir. Bununla da müəllif mif ilə dastan (folklor) arasında əlaqələrin funksional struktur mexanizmləri səviyyəsində canlı şəkildə qaldığını sübut etməyə nail olmuşdur.

Alim uzun illər ərzində folklorşünaslıq sahəsində apardığı araşdırmaların nəzəri qənaətlərini “Mifologiya və folklor: nəzəri-metodoloji kontekst” kitabında ümumiləşdirmişdir. Kitabın “Folklor etnokosmik düşüncə kodu kimi” adlı birinci fəsilində müəllif “Folklor nədir?” sualı ətrafında iki istiqamətdə araşdırma aparır:

1. “Folklor nədir?” Dünya təcrübəsi;
2. “Folklor nədir?” Azərbaycan təcrübəsi.

Müəllif hər iki istiqamət üzrə folklorun nəzəri səciyyəsi ilə bağlı mövcud nəzəri mülahizələri sistemli olaraq ümumiləşdirir, bu sual ətrafında mövcud olan təcrübəyə öz geniş

interpretasiyalarını verir. İstər beynəlxalq, istərsə də milli təcrübənin dəyərləndirilməsində müəllif mövcud yanaşmalara kreativ yanaşır, onlarla polemika situasiyasında folklorla bağlı öz yeni sistem yanaşmasını təqdim edir. Məsələn, müəllif Amerika Folklor Cəmiyyətinin saytına istinadən irəli sürdüyü fikirləri ümumiləşdirərək qeyd edir:

1. Folklor ənənə hadisəsidir;
2. Folklor şifahi davranış kodudur;
3. Folklor ənənədə mövcud olan: incəsənət; ədəbiyyat; bilik; təcrübədir.
4. Folklor xalq ənənəsi kimi etnosun: inandıqları; etdikləri; yaratdıqları; söylədikləridir [2, 14-16].

Bu yanaşmada folklorun yalnız bədii sözlü mətnlərdən ibarət xalq ədəbiyyatı deyil, digər sahələri də içinə alan xalq mədəniyyəti olması, bu mədəniyyətin isə funksional səciyyəyə malik olması əks olunmuşdur.

Yekun olaraq alim folklorla bağlı nəzəri qənaətlərini aşağıdakı kimi təqdim edir:

"1. Folklor etno-milli mədəniyyət sisteminin "mühüm" vahididir;

2. Folklor etnosun təfəkkürünün birbaşa etik-estetik təzahürü statusundadır;

3. Folklor etnik mədəniyyətin müxtəlif təzahür tiplərinin genezisində də dayanır, başqa sözlə, həmin tiplərin millilik keyfiyyəti folklora müncər olunur;

4. Folklor milli mədəniyyəti öz kodundan qopmağa qoymayan «qoruyucu» sistemdir: əgər etnosun milli kimliyinin folklor səviyyəsi funksionaldırsa, ifrat kosmopolitizm belə onun etnik özümlüyünü korşalda bilmir;

5. Folklorun etnik-milli mənsubiyyətindəki birbaşa statusu milliliyin meyar və etalonu vahidlərinə müncər olunur;

6. Folklorun öz regional strukturu ilə etnosun milli strukturundakı bu fövqəladə «statusu» onun məhəlli mühit kontekstində öyrənilmə zərurətinin başlıca nəzəri-metodoloji əsasını təşkil edir;

7. Folklorun regional kontekstdə öyrənilməsi onun çağdaş milli şüura inteqrasiyası kimi zəruri milli ehtiyacın ödənilməsinə qulluq edir;

8. Folklorun regional kontekstdə öyrənilməsi onun çağdaş ümumtürk dünyasındakı mövqeyinin funksionallaşma xronotopunun total strukturu çevrəsində müəyyənləşdirilməsi kimi zəruri milli vəzifənin həyata keçirilməsi də başlıca yollardan birini təşkil edir" [3, 31-32].

Əgər diqqət etsək, görərik ki, müəllifin müəyyənləşdirdiyi nəzəri istiqamətlərdə etnoyanaşma aparıcı mövqedədir ("etno-milli mədəniyyət", "etnosun təfəkkürü", "milli mədəniyyət"və s. ifadələr bunun göstəricisidir). Biz humanitar araşdırmalarda milli prinsiplərin elmiliyin əvəzləyicisi olaraq prioritetliliyindən bəhs etmişdik. Çox təqdirəlayiq haldır ki, Seyfəddin Rzasoyun yanaşmasında milli dəyərləndirmə ilə elmi yanaşma olduqca uğurlu bir şəkildə uyğunlaşdırılmışdır. Burada folklor özü milli mədəniyyət sisteminin tərkib hissəsi və həmin sistemin əsas etnogeneratoru olaraq məhz elmi baxımdan izah edilmişdir.

Əsərlərində nəzəri yanaşmanın xüsusi bir təmayül təşkil etdiyi Seyfəddin Rzasoyun araşdırmalarında bəzən ümumən mədəniyyətlə, folklorla bağlı ümumnəzəri qənaətlərin teoloji istiqamətə də meyilləndiyinin şahidi oluruq. Məsələn, müəllif mədəniyyəti strukturlaşdıran potensiyanın səbəb-nəticə əlaqəsinə əsaslanan ilkin genezisi məsələsinə münasibətdə nəinki etnoməni və ümumbəşəri, bütövlükdə Tanrı və Varlıq münasibətləri kontekstinə gəlib çıxır. Müəllif "Azərbaycan dastanlarında şaman qəhrəman arxetipi" adlı son kitabında yazır: "...enerji, bizcə, fəlsəfi mahiyyəti ilahi potensiyaya müncər olunan geniş anlayış olub, təkcə fiziki enerjidən ibarət deyil: geniş məna tutumuna malik mənəvi enerji də var. Və bizim burada "etnoenergetika", "etnik enerji", "etnokosmik enerji" adları altında vurğuladığımız

enerji ümumən mənəvi enerjinin tərkib hissəsidir. Lakin eyni zamanda belə hesab edirik ki, bütün tiplər arxetipə, bütün formalar arxeformaya gedib çıxdığı kimi, bütün enerjilər də ilahi potensiya olan vahid enerjiyə dayanır. Bu vahid enerji varlıq aləmində yaradılışın ilahi təsnifat strukturuna uyğun şəkillənmişdir. Etnoenergetika vahid enerjinin tərkib hissəsi, yaxud sublimativ şəkillənməsi olaraq öz mahiyyəti etibarilə fiziki enerji ilə eyni yuvaya girir. Biz bu tədqiqatımızda Azərbaycan eposunu etnoenergetik sistemin tərkib hissəsi kimi öyrənməyi qarşımıza məqsəd kimi qoymasaq da, ümumən bu və digər axtarışlarımızın fəlsəfi-metodoloji müstəvisi kimi ondan bəhs etməyə bilmirik" [3, 32 ].

Kitaba ön söz yazmış gənc folklorşünas alimlər Hikmət Quliyev və Səfa Qarayev haqlı olaraq qeyd edirlər ki, "kitabda "etnoenergetik sistem" anlayışına yanaşma hələ "rüşeym" halındadır. Məsələyə ilkin yanaşmadan belə bir nəticə hasil olur ki, bu anlayış növbəti orijinal tədqiqatlar üçün çoxsaylı mövzular təqdim edən mürəkkəb problemdir" [3, 4].

"Etnoenergetika" anlayışına münasibətdə Seyfəddin Rzasoyla gənc folklorşünaslar arasındakı mövqe fərqi paradiqmatik səviyyəsi etibarilə elmi-metodoloji yanaşma fərqi deyil (zahirən belə görünsə də). Bu, fundamental ümumfəlsəfi dünyagörüş fərqidir. Necə deyərlər, bu, mədəniyyət Tanrını xatırlamaqdır deyən Platonla mədəniyyət gerçəkliyi təqliddir deyən Aristotel arasında olan dünyagörüş fərqidir.

Seyfəddin Rzasoyun teoloji mövqeyində diqqət çəkən məqam ondan ibarətdir ki, müəllif etnoenergetikanı ilahi başlanğıcla əlaqələndirsə də, özü heç bir halda ortodoskal metafizikə çevrilmir. O, ümumfəlsəfi baxışları etibarilə idealist dialektik mövqeyi ilə diqqəti daha çox cəlb edir.

**Məqalənin aktuallığı**. 90-cı illərdə dünya folklorşünaslıq elminin yeni nailiyyətlərinin milli elmi fikir dövriyyəsinə daxil edilməsində elmə 80-ci illərdə gələn nümayəndələr öz missiyalarını yeni keyfiyyətdə davam etdirirlər. Bununla yanaşı, bu prosesə H.İsmayılov, C.Bəydili, K.Əliyev, R.Kamal, R.Qafarlı, A.Xəlil, E.Abbasov kimi tədqiqatçılar da qoşulmağa başlayırlar. Onların araşdırmalarında folklorun nəzəri problemlərinə maraq elə bir səviyyəyə qalxdı ki, hətta mətn səviyyəsində hər hansı bir detaldan söhbət gedərkən belə nəzəri-metodoloji yanaşma araşdırmanın mühüm konteksti kimi daim özünü büruzə verməyə başladı.

**Məqalənin elmi yeniliyi.** Bütün bu tendensiyalar nəticəsində folklorşünaslıq filoloji istiqamətli araşdırmaların əsas prioritetlərindən birinə və prestijli fəaliyyət sahəsinə çevrildi.

Ötən əsrin 90-cı illərində ümumictimai şüur səviyyəsində milli özünüdərk proseslərinin güclənməsi və onun milli-siyasi rezonansı kimi özünü göstərən azadlıq hərəkatı dalğası nəticəsində folklora maraq daha kütləvi bir xarakter aldı. Folklor obrazları, folklor motivləri xalq mədəniyyəti nümunələri olmaqdan çıxıb ümummilli məna kəsb etməyə, xüsusi ümummilli missiya yerinə yetirməyə başladı. Əlbəttə, folklorun ümumictimai və ümummilli səviyyədə bu miqyasda aktivləşməyi folklorşünaslıq sahəsindəki araşdırmaların kəmiyyət və keyfiyyətinə də təsirsiz ötüşmədi. Əvvəlki illərdən fərqli olaraq filoloji araşdırmalar çərçivəsində folklorla bağlı mövzuların professional monoqrafik və elmi dissertasiya səviyyəsində araşdırılmasına maraq xeyli artdı. Elmi tematikaların müəyyənləşdirilməsində etnik-milli rakurs ön plana keçməyə başladı.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə doktorantların, bakalavr və magistrantların elmi axtarışlarının qaynaqlarına çevrilə bilər.

## Ədəbiyyat

1.Həbibbəylihppt:wwwhttp://azertag.az/xeber/Akademik_Isa_Hebibbeyli_Folklorun_multidissiplinar_tedqiqi_zeruridir-1022536.

2. Rzasoy S. Mifologiya və folklor: nəzəri-metodoloji kontekst. Bakı: Nurlan, 2008, 188 s.

3. Rzasoy S. Azərbaycan dastanlarında şaman-qəhrəman arxetipi. Bakı: Elm və təhsil, 2015.

**С. Хавери**

## Опыт функциональной моделировании текстовой структуры в национальном фольклористики

## Резюме

В статье рассматриваются теоретические и фольклорные семинары известного азербайджанского фольклористического критика С. Рзасой в контексте новых методологических исследований в 90-х годах азербайджанского фольклора. Основным направлением исследования является опыт текстового функционального анализа текста С. Рзасой. В связи с этим автор привел взгляды С. Рзасой в центр внимания, и в какой-то момент он вступил в полемику с этими соображениями.

**S. Xavari**

## Functional modeling experience of text structure in national folklore

## Summary

In the article in the 90s Azerbaijan folklore occurring new account-methodological searches in search, modern Azerbaijani folklore studies prominent representative S. Rzasoy's theoretical and folklore studies. The main focus of the research is based on the experience of S. Rząsoy from the functional structural aspect of the text. The final conclusion put forward in the article is that the functional structural approach that S. Rzasoy brings to our folklore science has laid the foundation for a new theoretical aspect.

**Redaksiyaya daxil olub:** 16.05.2018